**Namiq Ağamalı oğlu Həsənov** [41]

# OLDOS HAKSLİNİN UTOPİK BAXIŞLARI

İngilis modernist ədəbiyyatının görkəmli nümayəndəsi Oldos Hakslinin (1884-1963) əsərləri tarixi, ədəbi, fəlsəfi, estetik mövzularla, alim və şairlərin adları ilə, tarixi faktlarla bağlı mülahizələrlə zəngin olduğu üçün onun romanları "intellektual" əsərlər adlandırılır. Hakslinin adı ingilis ədəbiyyatı tarixində nasir, yazıçı-fantast, novellaçı və filosof kimi həkk olunmuşdur. Qərbdə o, humanist, pasifist və satiraşı kimi tanınır. Hakslı, parapsxologiyaya [1], fəlsəfi mistisızmə [2], xüsusən də unversalizmə böyük maraq göstərmişdir. Yazıçı ali ingilis cəmiyyəti tərəfindən müasir dövrün görkəmli intelektual insanı adını qazanmışdır.

Rusiyalı tədqiqatçısı Y.Y.Dombrovskayanın bu fikirlə razılaşmır. O, qeyd edir: "Əslində bu intellektualizm dərin deyil, yazıçı yalnız öz erudisiyası və iddialı mülahizələri ilə oxucuları heyrətləndirməyə çalışır" [3, s. 444].

Gəncliyində Hakslinin "Yanan təkər" (1916), "İona" (1917), "Gəncliyin məğlubiyyəti" (1918), "Leda" (1920) adlı şeirlər toplusu çapdan çıxmışdır. Qərb tədqiqatçıları onun şeirlərində fransız simvolist şairləri Bodlerin, Malarmenin, Rembonun poeziyasının təsirinin hiss olununduğunu söyləmişlər [4].

Oldos Haksli XX əsrin 20-ci illərində İngiltərəni bürümüş ümumi inqilabi yüksəlişin təsiri altında mütərəqqi ideyalara tərəfdar olmasa da, yenə də burjuaziyanın tənəzzül etdiyini qeyd etmişdir. Onun yaradıcılıq yolu Birinci dünya müharibəsinin liberalizm mövqeyinə ağır zərbə vurması ilə burjua tərəqqisinə olan inamı sarsıdaraq burjua ziyalısının çaşqın qaldığı dövrdən başlayır.

Haksli "Sarı Krom" ("Crom Yellow", 1921) romanında XX əsrin qeyri-sabit ictimai-siyasi şəraitində sonsuz və səmərəsiz diskussiyalar aparan "hündüralın" ziyalılara XVIII əsrin xöşbəxt həyatını qarşı qoyur. Əsərin qəhrəmanı "Sarı Krom" malikanəsinin sahibi Uinbuş öz qonaqlarına 300 illik tarixi dövrü əhatə edən salnamə oxuyur. Beləliklə romanda müasir həyat səhnələri keçmişin həyat səhnələri ilə əvəzlənir. Romanın əsas ideyası odur ki, tarixin axarı ilə insanlar təbiətlə olan əlaqəni, cəmiyyətdəki sabit mövqeyini getdikcə daha çox itirirlər və fəlakətə doğru hərəkət edirlər.

Əsərin məzmunu personajların fəlsəfi mülahizələrindən aydın olur. Yazıçı bu romanda hazırcavab satirik portretlər yaratmışdır. Bu portretlər sırasında yazıçı-mistik Barbekyu Smit, danışqan insan epikürçü Skouqen, astrologiya ilə maraqlanan Prisilla vardır. Pessimist şair Denis Stounun gözləri önündə sıra ilə öz idealları və xırda maraqları ilə gülüş doğuran snoblar ötüb keçir.

Hakslinin "Sarı Krom" romanı haqqında Qərb tədqiqatçılarının söylədiyi fikirlər Y.Dombrovskayanın söylədiyi fikirdən kəskin fərqlidir. Onların fikrincə "yazıçı müasiri olduğu cəmiyyəti məntiqi və ağıllı şəkildə tənqid etmişdir. Çox gözəl dialoqları, sosial tənqidi özündə birləşdirən yazıçının üslubu XX əsrin ən çox oxunan yazıçılarından biri kimi ona şöhrət qazandırmışdır [5].

Gəncliyində Haksli Qarsinqtonda yaşadığı vaxtlar ledi Ottolin Morellə, Virciniya Vulfla, Kliv Bellə, Litton Streçi ilə, E.M.Forsterlə, D.H.Lourenslə, Bertran Rassellə, T.S.Eliotla və gələcək arvadı Mariya Nisi ilə tanış olmüşdür. Haksli 8 ildə 12 roman çap etdirmişdir. Yazıçı D.Lourensin, Mürreyin, Mensfildin əsərlərindən götürdüyü personajları və öz ronanının personajlarını bura daxil edərək onları orkestrin alətləri ilə müqayisə edir, müəllifə görə onların hər biri həyatda öz rolunu oynayır. [5]

Oldos Haksli bir müddət fabian sosializmi ideyalarının və "itirilmiş nəslin" müharibə əleyhinə olan əhval-ruhiyyəsinin təsiri altıda olmuşdur, bununla belə onun dünyagörüşünün xarakterik mövqeyi müasir cəmiyyətin elmi-texniki inkişafının qəbul etməməsi oldu. O, XX əsr sivilizasiyasına şübhə ilə yanaşmışdır. Yazıçı "Təlxəy xoru" ("Antic Hay", 1923) romanında təsvir etdiyi burjua ziyalılarının nümayəndələri olan qəhrəmanlarını "keçiayaq satirlər" adlandırmaqla onlara gülür, çünki onların həyatı yazıçıya boş, mənasız və darıxdırıcı görünür. Yazıçı, bu əsərində ingilis təhsil sistemini, zəngin insanların musiqiyə aludəçiliyini və xeyriyyəçilik aksiyasını, dekadent incəsənətini və poeziyasını gülüş hədəfinə çevirir. Bununla belə o, bunlara qarşı heç bir alternativ fikir irəli sürməyərək çəkinmədən ruh düşkünlüyü nümayiş etdirir.

O.Hakslinin "Təlxək xoru" romanı faciəvi yüngül komediyadır. Satirik yazıçı bu əsərdə ziyalılarin üzləşdiyi faciəvi problemlərin onlar tərəfindən necə ədəbsiz masqaraçılığa çevrildiyini göstərmişdir. İdeallarını itirmiş ziyalıların bütün fəaliyyəti "təlxəy xoru"nu xatırladır.

Hakslinin ən yaxşı əsəri sayılan "Kontrapunkt" ("Point Counter Point", 1928) romanında realist və modernist tendensiyalar bir-biri ilə kəsişir. Romanda realist başlanğıc onun satirik xarakterində, burjua ziyalılarının soyuq intellektualizminin və çox qüsurlu mənəviyyatsızlığının kəskin ifşasında, lağa qoyulmasında ifadə olunmuşdur. Burjua ziyalıları hərəkətin perspektivsizliyini hiss edərək zövq almağa can atırlar. Bu planda əxlaqsız Spendrelin və "vamp" qadın Lyusi Tentemauntun obrazları səciyyəvidir.

İnsanları özündən asılı vəziyyətə salaraq onları sıxışdıran, başqalarının yaradıcılıq qabiliyyəti sayəsində parazit həyat tərzi keçirən acıqanlı naşir Barlepin gercək surəti təqdirəlayiqdir. Romanda Barlepi yaxşı taniyan insanlar onu "mənəvi zəli" adlandırırlar.

Romanda abstrakt intellektual ideyaların ətrafında qapanıb qalaraq cəmiyyətdən uzaqlaşan, həyatı pis bilən, insanların keçirdikləri hiss və həyəcanı anlamayan yazıçı Filip Kuorlzun obrazı oxucuların diqqətini çəkir. Haksli bu

[41] BDU-nun Dünya ədəbiyyatı kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/ 0009-0007-8571-6057, namikhasanov@bsu.edu.az

romanında “hündüralın” mühitindən olan insanların kəskin satirik obrazını yaratmışdır. Yazıçı İngiltərədə “başqa millətin” də (xalqın) mövcud olduğundan danışsa da, o, heç də onun xeyirxahı kimi çıxış etmir. O, ideya cəhətdən özünün “hündüralın” qəhrəmanları ilə qalaraq xudbinlik və laqeyidlik təbliğ edir. “Hündüralın” burjua ziyalılarına gülən Haksli kommunist İllicə də düşmən münasibəti bəsləyir, bilərəkdən onu karikatura şəkildə göstərir. Müəllif onu əxlaqsız Spendrellin faşist Everar Ueblini ideya düşünçəsinə görə deyil, caninin psixoloji vəziyyətinin necə olacağını bilmək üçün təşkil etdiyi qətlin iştirakçısına çevirir. Bu romanı fərqləndirən xüsusiyyətlər personajların və müəllifin incə istehzasında ortaya çıxır. Bununla belə, Hakslinin istehzası nihilizmdən (hər şeyi danmaqdan) və skepsizmdən (hər şeyə şübhə ilə baxmaqdan) ayrılmazdır. Burjua ziyalısının əxlaqi və mənəvi düşkünlüyünün tənqidi təsvirini ifadə edən sosial məzmunlu elementlər həyatı relyativist anlayışla kontrapunkt kimi, məişət həyatına xas olan ziddiyyətli hadisələrin yanaşı mövcud olması kimi əlaqələndirilirır.

Rusiya tədqiqatçısı N.P.Mixalskaya “Kontrapunkt” romanının orijinal xüsusiyyətlərinin olduğunu qeyd edir: “Əsərin kompozisiyası musiqili kontrapunkt prinsipi əsasında yaradılmışdır. Şekspirin əsərlərindən götürülmüş sitatlar romanda mühüm bədii rol oynayır. Müxtəlif personajların mürəkkəb və incə səslərinin uyğunluğu hekayə tərzinə xas cəhətdir. Ayrı-ayrı motivlərdə F.M.Dostoyevskinin təsiri duyulur” [6, s. 399]. İngilis yazıçısı Devid Herbet Lourens isə Oldos Hakslinin “Kontrapunkt” romanında o dövrün ictimai həyatını ən doğru şəkildə təsvir etmək bacarığına görə onun bu əsəri haqqında müsbət fikir söyləmişdir [3].

O.Hakslinin ilkin yaradıcılığının realist başlanğıcı çox vaxt onun dünya görüşündə hələ də fabian sosializmi və “itirilmiş nəsl”in müharibə əleyhinə mövqeyi ilə əlaqənin mövcud olması ilə müəyyən edilirdi. Bununla belə, Hakslinin ilkin yaradıcılıq dövrünə aid əsərləri də humanizm pafosu ilə seçilmirdi. Onun XX əsrin 30-60-cı illərinə aid əsərlərində ortaya çıxan antihumanizmin başlanğıcı onun daha əvvəlki yaradıcılığında belə sezilir.

Haksli 30-cu illərin çox hissəsini İtaliyada keçirmişdir. O, Fransanın Tulon şəhərinin yaxınlığında yerləşən Sanneri şəhərində yaşamış və burada yazdığı “Gözəl yeni dünya” əsərində gələcək yüksək texnoloji cəmiyyətin kədərli həyatının təsvirini yaratmışdır. Ədib bu əsərində Herbert Uelsin eimi optimizm nəzəriyyəsini alt-üst edir. Elmin inkişafı və mədəni dəyişikliklər – sənayedə çevriliş etmiş kütləvi istehsal, Çarlz Limberq və Ameliya Erhartın romantikləşdirdikləri təyyarələrdə səyahətə çıxmaq, bixevorist psixologiya və genetika sahəsindəki təcrübələr o dövrdə bir çox insanın beyni düşündürmüş və maraqlandırmışdır. O, bu əsərini geniş oxucu kütləsinə özünəməxsus cavab olaraq yazmışdır. Romanın çapdan çıxdığı birinci il İngiltərədə və ABŞ-da onun 28 min nüsxəsi satılmış, bütün XX əsr boyu satılan kitablar arasında lider olaraq qalmışdır.

Oldos Haksli “Gözəl yeni dünya” (Brave New World, 1932) adlı ilk antiutopiya romanını 17 yaşında yazmış, ancaq çapa verməmişdir. “Gözəl yeni dünya” antiutopik romanında yazıçı bəşəriyyətin gələcəyi ilə bağlı narahatlığını bildirilir. Bu əsərində yazıçı belə bir pessimist fikir söyləyir ki, elmin və texnikanın gələcək inkişafı şəxsiyyəti susduran və standartlaşan totalitar rejimin yaranmasına gətirib çıxaracaq. Ədibin fikrinə görə cəmiyyət insanlıqdan məhrum olaraq mexaniki sistemə çevriləcək, burada insanlar kolbada yaradılacaq, onları standartlaşmış cəmiyyətin bu və ya digər sahəsində fəaliyyət göstərmək üçün onlara ancaq lazım olacaq xüsusiyyətlər aşılanacaqdır. Robotlara çevrilmiş insanlar emosiyadan və hər hansı şüurlu hərəkətdən məhrum olacaqlar. Onlar ancaq proqramlaşdırılmış əməliyyatları yerinə yetirəcəklər. Yazıçı bu cür müasir kapitalist cəmiyyətinin bəşəriyyəti hara aparıb çıxaracağını obyektiv şəkildə göstərmişdir. Hakslinın Fordun Amerikası haqqındakı təəssüratları romanın əsas ideyasını təşkil edir. Bununla belə romanda antisosialist tendensiyalar da vardır. Totalitarizmi və elmi-texniki tərəqqinin nəticəsini tənqid etməklə Haksli ictimai sistemlər arasında fərq qoymur və bu şübhəsiz onun uzaqgörənliyindən xəbər verir. Beləliklə Hakslinin satirası təkcə amerikan kapitalizminin əleyhinə deyil, eyni zamanda sosialist cəmiyyətinə qarşı yönəlmişdir. Gələcək cəmiyyətin utopik təsviri antiutopiyaya, satira isə həcvə çevrilir. Tanınmış ingilis şairi Q.K.Çesterton onun bu əsəri haqqında demişdir: “Gözəl yeni dünya” bir növ Hakslinin “utopiya əsrinə” qarşı yazılmış etirazıdır [3].

Antiutopiya spesifik fəlsəfi janr kimi XX əsrin birinci yarısında gərgin sosial-siyasi və mədəni hadisələrin, iki dünya müharibəsinin və inqilabların, elmin intensif inkişafı və totolitar rejimlərin yarandığı XX əsrin I yarısında formalaşmış və özünün ən yüksək inkişaf səviyyəsinə çatmişdir. Bütün bunlar antiutopiya ədəbi janrında öz əksini tapmlşdır**.** Bu da təsadüfi deyil, belə ki, antiutopiyada xüsusi ideya-bədii universum qurulur ki, burada mümkün olan varlıq kimi çıxış edir, ideya reallığa çevrilir, arzu gerçək olur. Məhz bu vaxtlar müxtəlif ölkələrdə, demək olar ki, eyni vaxtda O.Hakslinin, C,Orruelin, H.Uelsin, R.Bredberinin, A.Kestlerin və başqalarının antiutopik istiqamətli çoxsaylı əsərləri meydana çıxır. Bu əsərlər tez bir zamanda oxucular arasında geniş şöhrət tapır və onların diqqətini cəlb edən bütöv kompleks ideoloji, sosial, etik və estetik problemlər olan coşqun ədəbi-tənqidi polemikanın yaranmasına gətirib çıxarır.

Rusiya tədqiqatçısı Y.A.Borisenko “XX əsrin I yarısında antiutopik romanlarda hakimiyyət ritorikası və məhəbbət poetikası” adlı namizədlik dissertasiyası işinin avtoreferatında qeyd edir: “Bu janrın nümayəndələri bəşər sivilizasiyasının sonrakı inkişafının müxtəlif variantlarını oxucuların müzakirəsinə buraxmaqla keçmişin utopik ideallarına və sabahkı günə olan inamsızlıq onların ümidlərini boşa çıxarır. Bu sosial motivlər xüsusi ideya-estetik və ifadəli bədii-mənalı, pessimist və xəbərdarliq edən romanların (романов-прупупреждений) yaranmasına gətirib çıxarır” [7, s. 9].

Hakslinin sonrakı romanlarında antihumanist hisslər güclənir, getdikcə əsərlərində hər cür alçaq və çirkin əməllərə maraq ortaya çıxır. İngiltərənin ən yaxşı övladladrının ispan xalqının faşizmlə mübarizəsində onlarla bir səngərdə döyüşdüyü bir vaxtda Haksli “Qəzzada kor adam” (“Eyeless in Gaza”, 1936) romanını yazır. O, bu

romanda İsa Məsih və kor adam haqqında "Bibliya" hekayəsini modernləşdirərək onu müasir dövrlə bağlayır. Əsərin canına işləmiş mistisisizmlə dolu bu romanda əsərin qəhrəmanı sosioloq Entoni Bivisin dili ilə danışan yazıçı siyasi dəyişikliyi deyil, ayrı-ayrı insanların öz mənəvi bacarığının inkişaf etdirilməsini tələb edir. Entoni Bivis mövcud olmağın əhəmiyyətsizliyi fikrinə gəlir və seksual həyatı seçərək, zülmə müqavimət göstərməməyi təbliğ etməklə gerçəklikdən qaçmağa çalışır.

1939-cu ildə Oldos Haksli ailəsi və dostu Cerald Hert ilə birlikdə İngltərəni həmişəlik tərk edərək ABŞ-a köçür. Onlar Los-Anceles şəhərində məskunlaşırlar. Burada Hakslinin əsas yaradıcılıq dövrü başlayır. O, insan həyatının mahiyyəti məsələsini daha geniş və ətraflı öyrənməyə çalışır.

1938-ci ildə Haksli burada hindli Ciddu Krişnamurti ilə tanış olur. Ciddu Krişnamurtinin təsiri altına düşən Haksli burada müdrüklüyün müxtəlif doktrinalarını öyrənməyə başlayır, mistika ilə məşğul olur. İngilis-amerikan yazıçıları ilə müqayisədəyə Haksli Qərb ruhunun niyyətinin, yeniləşmiş dünyaduyumunun açıqlanmasında hər kəsdən daha çox aydınliq gətirmişdir. Rusiyalı tədqiqatçı İ.V.Qolovoçova "Oldos Hakslinin yaradıcılığında ədəbiyyat və elm" adlı doktoriuq dissertasiyası işinin avtoreferatında yazr: "Oldos Haksli Şərq müdrüklüyünü (yoqa, dzen-buddizm, daosizm, maxayana-buddizm) və Qərbin elmi praqmatizmini birləşdirərək adekvat dini fəlsəfənin formalaşmasını tələb edən Qərb ruhunun yeniləşmiş dünyaduyumunu ifadə etmişdir. Krişnamutrinin moizələri və Alan Uottsın mühazirələri, parapsixoloqların "orta yolu" axtarıb tapmaq cəhdi, psixiatrların təşəbbüsləri sayəsində şüurun funksiyasının artmasının və şəfa tapmasının alternativ yollarının axtarışı – bütün bunlar bu və ya digər şəkildə bizə zəmznənin ruhu haqqında aydınlıq gətirən Oldos Hakslinin müharibədən sonrakı mətnlərində ortaya çıxır" (8, s. 7). Ceyms Sekstonun və Ceremi Makyeranın səyləri nəticəsində tərtib edilmiş "Oldos Hakslinin tam külliyatı" (Complete Essays of Oldos Huksley), o cümlədən "Sirr verməyən Haksli" və "Haksli və Tanrı" külliyatları da çapdan çıxmışdır (8, s. 7).

Oldos Hakslinin sonradan yazdığı "Əbədi fəlsəfə" (The Perennial Philosophy, 1948) və "Çox illər sonra qu quşu ölür" (After Many a Summer Dies the Swan, 1939), həmçinin "Vaxt dayandırılmalıdır" (Time must have a stop, 1945) adlı əsərlərində uzun illər yazıçının yaddaşında qalmış fikirlərə aydınlıq gətirilir. Yazıçının az tanınan "Əbədi fəlsəfə" əsərində dünyanın ən əhəmiyyətli dinlərində mövcud bütün müdrüklüklərin sayəsində insanların axtarışda olduqları həqiqəti qanunauyğun tərzdə birləşdirmək arzusu nümayiş etdirirlər.

1953-cü ildə Oldos Haksli dünyaca məşhur psixiatr Hamfri Osmondun apardəğı eksperimentin iştirakçısı olmuşdur. Eksperimentin məqsədi meskalinin insanın şüuruna göstərə biləcəyi təsiri öyrənməkdir. Sonralar Hakslinin Osmonda yazdığı məktubların birində hallüsinogen maddə sayılan meskalinin insan şüuruna göstərdiyi təsir təsvir edilərkən ilk dəfə "psixodelika" sözu işlənmişdir. Hakslinin "Qavrayış qapıları" (The Doors of Perseption, 1954) və "Cənnət və Cəhənnəm" (Heaven and Hell, 1956) esselərində yazıçı ömrünün sonunadək iştirak etdiyi 10-a qədər eksperimentin müşahidəsinin və necə keçdiyinin təsvirini verir (9).

Haksli özünün axırıncı romanlarında realist prinsiplərdən uzaqlaşıt. Elə həmin il yazşı "Çox illər sonra qu quşu ölür" modernnist romanında insan təbiətinə böhtan atır, xristian dinini təbliğ edir. Uzunömürlülük mövzusu ilə bağlı romanın fantastik məzmunu yazıçıya insan cəmiyyətinin məhvinin qaçılmaz olduğunu sübut etməsi üçün əsas olur.

"Meymun və mahiyyət" (Ape and Essence, 1949) romanında öz oxucularını XXII əsrə aparıb çıxaran Haksli bu əsri ibtidai insanların barbarlıq həyatı yaşadığı dövrə qayıdışı kimi təsvir edir.

Ölümündən bir az əvvəl Oldos Haksli "Ada" ("İsland", 1962) alleqorik romanını çapdan buraxdırır. Əsərdəki kinayə çoxmənalıdır. Bu əsərdə ada həm İngiltərə, həm də istənilən hər hansı başqa bir ölkə ola bilər, bu həm də bəşər sivilizasiyasıdır. Romanda alleqoriyanın modernist xarakteri özünü onda göstərir ki, burada çoxmənalılıq gerçəkliyin real mürəkkəbliyinin təhlilinə deyil, müəllifin pessimist ideyalarının və mistik assosiasiyalarının həyata keçməsinə xidmət edir. Əgər bu çoxmənalılıqda aparıcı mövzu ortaya çıxarsa da, onda bu, faciə, təcrid olmaq, iztirab və ölüm mövzusudur.

Romanın qəhrəmanlarından biri, ingilis jurnalisti Uil Fornebi təsadüfən dənizdə qalxan tufan nəticəsində haradasa Hind okeanında yerləşən Pala adasına gəlib çıxır. O, burada iki qüvvə arasında baş vermiş mübarizənin şahidi olur. Bunlardan biri adada hərbi totalitar rejimin yaradılmasının vacibliyini bildirən sənyenin inkişafının tərəfdarı, digəri hind mistisizmi və "İncil" ideyalarına əsaslanan sosial-bioloji islahatçılığın tərəfdarıdır. Uil Farnebinin islahatçılığa nə qədər rəğbətlə yanaşmasına baxmayaraq, adada diktatura rejiminin qurulması labüddür. Yazıçı bununla demək istəyir ki, zorakılıq və ölüm heç nəyə baxmayaraq üstün gəlir. Romana kosmik pessimizm kök salmışdır. "Ada" romanında real gerçəklikdən qoparılmış və subyektiv ideyalarla doldu alleqoriya bütövlüyünü və orqanik tamlığını itirir. Əsərdə alleqoriya müəllifin hind mistisizmi haqqındaki, insan orqanizmi üzərində aparılan bioloji eksperimentlər haqqındakı düşüncələri ilə alt-üst olur. Hakslinin yaradıcılığında roman-alleqoriya roman-traktata və antiutopiyaya çevrilir. Yazıçının əsərlərində güclənməkdə olan antihumanizm onu realizmdən, satiradan və bədiilikdən imtina etməsinə gətirib çıxarır.

Rusiya tədqiqatçısı V.S.Rabinoviç qeyd edir: "Oldos Haksli dünya ədəbiyyatı tarixində əlamətdar yazıçıdır. Uzun onilliklər boyu onun yaradıcılığı dünya tənqidində Qərb ədəbi inkişafının təməl meyillərinin, ictimai fikrin özünəməxsus göstəricisi kimi qəbul edilirdi. Ədibin yaradıcılığına dair 100-dən çox monoqrafiya həsr olunmuşdur. Bu elmi əsərlərin bir çoxunda onun yaradıcılığı kəskin tənqid olunur, bir mədəni hadisə kimi inkar edilir və ya neqativ hadisə kimi baxılır [10, s. 11]. Məsələn, ingilis tədqiqatçısı Y.Burqum Oldos Hakslinin bütün yaradıcılığını, onun müxtəlif əsərlərində müxtəlif dərəcədə gizli qaldığı sinismi, real insanlara olan nifrəti müəllifin mizantropiyası

kimi qimətləndirilir [11, s. 140-156]. Lakin burada da Hakslinin yaradıcılığı əhəmiyyətli hadisə kimi görünmür və bu səbəbdən təhlükəli sayılır. Hakslinin ingilis klassiki və eyni vaxtda müasirliyin böyük mütəfəkkiri sayılması fikri təsadüfi deyildir. Belə ki, ingilis tədqiqatçısı və tənqidçısı T.Vulfun (1926-1927-cı illər) qeydiyyat kitabçasında Haksli "ən böyük potensiala malik" gənc yazıçı kimi qiymıtləndirilir [12, s. 229].

Amerikan tədqiqatçısı və tənqidçisi A.Henderson hələ Hakslinin sağlığında yazdığı və 1964-cü ildə çapdan buraxdırdığı "Oldos Haksli" adlı monoqrafiyasında onun yaradıcılığını yüksək qiymətləndirərək yazır: "Yaşayan yazıçılar arasında Haksli qədər təkrar oxunan layiqli başqası yoxdur" [13, s. 258]. Hətta A.Hendersen Heminquey, Folkner və Dos-Passosla müqayisədə Hakslini XX əsrin daha görkəmli yazıçısı kimi qiymətləndirir: "Cox az yazıçı var ki, Haksli qədər olduqca əhəmiyyətli nə isə deyə bilsin və heç kəs onun qədər üsluba, dərin mədəniyyətə və böüük bədiiliyə melik deyil" [13, s. 258].

XX əsr ədəbiyyatının inkişafinda Hakslinin təsirini səciyələndirən ingilis tədqiqatçısı və tənqidçisi Anqus Uilson qeyd edir: "Oldos Hakslinin yaradıcılığı ilə bağlı son nəticəyə gəlincə bildirim ki, sonradan ədəbiyyata gəlmiş bir çox böyük yazıçı ona borcludur [16, s. 995].

Rusiyalı tədqiqatcı B.Y.Puşkanski özünün "Elm və ədəbiyyat" (Oldos Hakslinin antiutopiyası və Ziqmund Freydin psixoanalizinin antiutopiyasının nümunəsi əsasında) adlı məqaləsində yazır: "Oldos Hakslinin bədii və publisistik mətnlərinin elmi məzmununun axtarışı və dərk edilməsi vacib əhəmiyyət kəsb edir... Həyatı boyu üzərində gərgin düşündüyü elmi konsepsiyalar təkcə onun kulturoloji və sosioloji traktatlarında deyil, həm də romanlarında təcəssüm etdirilmişdir [15]. Oldos Haksli bir neçə dəfə demişdir: "Əgər mən yenidən doğulsaydım və kim olmaq istədiyim haqda seçim etsəydim, mən alim olmağı arzu edərdim... Əgər mən Şekspir olsaydım belə, Faradey olmağı istərdim [9].

B.Y.Puşkanskinin yazır: "Psixoanalinik yanaşmanın XX əsr ədəbiyyatına olduqca böyük təsir göstərdiyini inkar etmək çətindir. Haksli bir çox halda öz utopiyalarında yaratmış olduğu obrazlar sisteminə görə psixologiyanın və psixoterapiyanın müxtəlif istiqamətlərinə borcludur. Lakin bədii nəsrin elə bir janrı var ki, müasir tədqiqatçının fikrincə bu psixoanalizin təsiri üçün ən uyğun olanı sayılır. Bu utupiyadır, əgər utopiya sözü altında "təsəvvür etdiyimiz haqda istənilən mətni, hərdən isə tam real, ideal həyat qurluşu kimi başa düşürüksə" [15].

Oldos Haksli "Ən qəribə elm" (1956) adlı elmi məqaləsində "qeyri-effektiv psixoanaliz" haqqında yazmışdır. Psixoanalizə çox da rəğbət bəsləməyən Haksli (o, hətta psixoanalizi magiya və astrologiya kimi saxta elmlərlə müqayisə edirdi) bütün ədəbi yaradıcılığı boyu Ziqmund Freyd haqqında yazmaqda davam edirdi. Bu yazılar arasında Freyd psixoanalizinin xüsusi yeri vardır. Bununla belə Hakslinin psixoanalizə olan münasibəti birmənalı olmamışdır, pozitivlikdən daha çox neqativ xüsusiyyət daşıyırdı.

Psixoanalitik yanaşmanın XX əsr ədəbiyyatına olsuqca böyük təsir göstərdyini inkar etmək çətindir. Haksli yazırdı kı, yazıçılar çox vaxt özlərinin elmdən xəbərsizlikləri ilə öyünürlər. O, hər dəfə əvvəlki kimi Eynşteynin və Qeyzenberqin kəşflərini inkar edən ədibləri "cahil axmaqülar" adlandırırdı. Haksli "Ədəbiyyat və elm" adlı son əsərində yazır: "Təbiət elmləri biliyi, əsasən ədəbiyyardan kənar qalır, o, bioloji məqsədlə insanı bir individium kimi, mədəniyyətin məhsulu kimi, bioloji növ kimi öyrənənlər tərəfindən mənimsənilmir. B.Y.Pukşanskiyə görə psixoanalitik yanaşma XX əsr ədəbiyyatına olduqca böyük təsir göstətmişdir. Yazıçıların Ziqmund Freydin nəzəriyyəsinə olan ümumi həvəsin olmasını qeyd edən Haksli bunun cəlbediciliyinin səbəbini insan şüurunun problemlərinin düzgün izahına olan tələbində görürdü. Haksliyə görə Freydin fərziyyəsinin insanı valeh edən uydurma nəzəriyyəsi ədəbiyyat vasitəsilə qavranmasını asanlaşdırırdı. Ömrünün sonuna yaxın Haksli "Ədəbiyyat və elm" adlı əsərində psixoanalizin ideyaları olmadan inkişaf edə bilməyəcək ədəbi mövzuları (məsələn: narahatlıq, frustrasiya və başqaları) göstərmişdir [15].

"Dünya ədəbiyyatşünaslığında Hakslinin yaradıcılığındakı intertekstual aspekt də bir çox tədqiqatçı tərəfindən araşdırmışdır. Yazıçının yaradıcılığını bütöv bir hadisə kimi qəbul edən Qərb tədqiqatçılarından C.Atkins, R.S.Beyker, C.Bedford, Birinbaum, P.Boverinq, L.Brander, S.Gnouz, C.Vudkok, B.Krişnan, C.Meyker, C.A.Namke, K.C.Ferius, P.Firsou, A.Hebdersen, Ç.N.Holms, o cümlədən Rusiya tədqiqatçılarından İ.V.Qolovaçova, V.S.Rabinoviç, O.N.Redina, S.S.Falaleyeva və başqaları öz monoqrafik əsərlərində bu aspekdən yan keçməyərək kompleks şəkildə tədqiq etmişlər, eyni zamanda Hakslinin yaradıcılığının geniş intertekstual kontekstinin fraqmentlətinin daha ətraflı tədqiqi ilə bağlı çoxsaylı başqa əsərlər də vardır. Qərb ələbiyyatında bu məsələ ilə bağlı P.Bavering, M.Birnbaum, İ.Qruşou, M.Kessler, C.D.Klersen, D.K.Koulmen, B.Krişnan, C.Liper, A.L.Morton, Q.Noymann, H.Pendekster, S.Rouz, H.H.Uotts, P.Firşou, R.B.Smerl, A.Henderson, C.Eyrenprays və başqaları məşğul olmuşlar. Rusiya tədqiqatçılarından D.Cantiyeva, M.Levidov, V.Şestakov, P.Poliyevski, R.Qaltseva, A.Zverev, İ.Rodyanskaya, V.Rabinoviç, L.Rebikova, M.Spivak, A.Şişkin və başqaları Hakslinin yaradıcılığının antiutopik aspektinə yer ayırmışlar.

V.V.Matter Oldos Hakslinin yaradıcılığındakı genetik əlaqəni dünyanın utopik və antiutopik ənənləri ilə gözdən keçirir. V.V.Matterin fikincə, "Gözəl yeni dünya", "Meymun və mahiyyət" və "Ada" kimi romanlar yazıçının utopik ənənələrin bəzi təzahürlərinə "qərəzli" mövqedən çıxış etdiyini göstərir. V.V.Matterə görə, bir çox klassik utopiyalarla Hakslinin "Ada" romanındakı utopiya arasındakı fərq odur ki, əgər Platonun, T.Moriakın və T.Kampanellanın utopik dövlətlərində sakinlər özlərini "ola biləcək" hücumun təhlükəsindən qorunmağı vacib hesab edirlərsə, Hakslinin utopik Pala adasının sakinləri, əksinə, müdafiə olunmadıqları üçün silahlı basqına məruz qalırlar.

Rusiyalı tədqiqatçı M.İ.Babkina "Oldos Hakslinin roman yaradıcılığı:

intertekstual aspekt" adlı namizədlik dissertasiyası işinin avtoreferatında qeyd edir: "Bəzi Qərb tədqiqatçıları, xüsusilə Y.M.Burqum və qismən A.L.Morton Oldos Hakslinin "Gözəl yeni dünya" utopik romanının pafosunu nəzərə alaraq və onu daha geniş antiutopik konteksdən gözdən keçirərək, faktiki olaraq Hakslini hər cür sosial tərəqqini inkar etməkdə günahlandırırlar".[16, s. 10]. Morton yazır: Oldos Hakslinin "Gözəl yeni dünya" romanında əsl məqsədi sabit cəmiyyət təsvir etmək adı altİnda humanizm üzərinə hücuma keçməkdir" [17]. Morton "İngilis Utopiyası" (The English Utopia", 1952) adlı monoqrafiyasında Oldos Hakslinin utopik və antiutopik modellərini T.Morun "Utopiya"sı, Uilyam Bleykin "Cənnətlə Cəhənnəmin nikahı" əsərlərilə birgə nəzərdən keçirdiyini qeyd edir [18, s. 10].

Rusiya tədqiqatçısı S.S.Falaleyeva da "Oldos Hakslinin yaradıcılığının antropoloji əsasları: mimetik aspektlər" adlı namizədlik dissertasiyası işinin avtoreferatında Oldos Hakslinin yaradıcılığını yüksək qimətləndirir. O, yazır: "Hakslinin yaradıcılığının özünəməxsus xüssusiyyətləri ola bilsin ki, XX əsr ingilisdilli ədəbiyyatında görünməmiş hadisədir, bir yazıçı kimi onun bədii mətnlərinin tamamilə spesifik intonasiyasını müəyyən edən insana və dünya haqqında elmi biliklərə maraq göstərməsidir [18, s. 11].

Haksli istər bir yazıçı və ya mütəfəkkir kimi heç bir ədəbi istiqamətə və ya fəlsəfi dünyagörüşlü sistemə məxsus olmamışdır. İngilis tədqiqatçısı R.T.Sion bu məsələ ilə bağlı qeyd edir: "Həqiqətən Oldos Haksli XX əsrin yazıçısı kimi öz tədqiqatlarında, sözün əsl mənasında, müasir əsrin insanı olmaq nə demıkdir məsələsində müasir filosofun və ədəbiyyat təbliğçisinin vəzifəsini öz üzərinə götürür": "In fakt, Aldous Huxley, as a writer of fiction on the 20$^{th}$ century, willingly assumes the role of a modern philosopher-king or literary prophet by examining the essence of what it means to be human in the modern age" [19, s. 2].

Oldos Hakslinin utopik nəzəriyyəsi barəsində S.S.Falalayevanın gəldiyi qənaət belədir: "Oldos Hakslinin utopik və antiutopik konsepsiyalarının araşdırılması ədəbiyyatda xüsusi əhəmiyyət kəsb edir. Bu onunla əlqədardır ki, Hakslinin utopiyasına və antiutopiyasına tədqiqatçılar bir tərəfdən onun dünyaya baxışının konseptual əksi kimi, digər tərəfdən isə ədəbiyyatda utopik dünya modelinin təmsilçiliyi kimi baxırdılar [18, s. 12].

Haksli "Gözəl yeni dünya" əsərinin yazılmasından 27 il sonra "Gözəl yeni dünyaya qayıdış" (Brave New World Revisited, 1958) essesini yazır. Yazıçı birinci əsərində təsvir etdiyi cəmiyyətin əksinə olaraq, ikinci əsərində belə bir fikir irəli sürür ki, gələcəkdə cəmiyyətin vəziyyəti olduqca acınacaqlı və qorxulu olacaqdır. Geyd edək ki, Oldos Haksli olduqca məhsuldar yazıçı olmuşdur. Onun "Xəzan yarpaqları" (1925) (bu roman "Tökülmüş quru yarpaqlar" kimi də adlandırılır), "Boz yepiskop həzrərləri" (Qrey Eminence, 1948), Lüdyon şeytanları (The Devils of Loudun, 1952), "Dahi və ilahə" (The Genius and the Goddes, 1955) kimi romanları yazıçının intelektual əsərlərindən sayılır. Hakslinin ikinci arvadı, italyan qadın yazıçısı Lora Arçera "Zəmanəyə tabe olmayan bu an" (1968) adlı bioqrafik kitabını sevmlı ərinə həsr etmişdir.

**İstifadə edilmiş ədəbiyyat**


1.Tody, Philipe Husley. A Biografical Introduction. Scribner, 1973.
2. David K. Oldos Huxley Recollected An Oral History. Rownan Altamira, 1995, –p. 90.
3. Домбровская Е.Я. Английская литература 1917-1945 гг. См.: История зарубежной литературы XX века. Государственное учебно-педагогическое издательство министерства просвещения РСФСР, М., 1963, с. 444.
4.Искусство видеть будущее – Горький Медиа gorky.media/context/iskusstvo-videt-budushhee
5. https://fantlab.ru>autor>101
6. Аникин Г.В., Михальская Н.П. История английской литературы. Москва: Высшая школа, 1975, с. 399
7. Борисенко, Юлия Александровна. Автореф. kан. дисс. «Риторика власти и поэтика любви в романах-антиутопиях первой половины XX века. Дж.Оруелл, О Хаксли, Е.Замятин». М., 2004, с. 9.
8. Головачева Ирина Владимировна. Автореф. док. дисс. «Литература и наука в творчестве Олдоса Хаксли». М., 2008, с. 79.
9. ru.wikipediya.org/wiki/Хаксли,_Олдос
10. Рабинович В.С. Автореф. док. дисс. на тему «Олдос Хаксли: Эвалюция творчества». М., 1999, с. 11.
11. Burqum Y.B Aldous Huxley and his "Dying Swan"//E.B.Burgun, The Novel and the Word's Dilemma, N.Y.: Oxsford University Press, 1947, p. 140-156
12. Вульф Т. Жажда творчества. –М.: Прогресс, 1989, с. 229, – 408 с.
13. Henderson A. Aldous Huxley. –N.Y.: Russell and Russell, 1964, 258 p.
14. Letters of Aldous Huxley – L.: Grover Smith, 1969. –995 p.
15. Пукшанский Б.Я. «Наука и литература» (на примере антиутопий Олдоса Хаксли и психоанализа Зигмунда Фрейда). Санкт-Петербург, 2011
16. Бабкина М.И. Автореф. канд. дисс. «Романное творчество Олдоса Хаксли: интертекстуальный аспект». М., 2024, с. 10. См.:dissercat.com/content/romannoe-tvorchestvo-oldosa-khaksli-intertestualnyi-aspekt
17. Мортон А.Л. Английская утопия. Перевод с англ. О.О.Волковой. М., 1956, - 278 с.
18. Фалалеева С.С. Автореф. канд. дисс. на тему «Антропологические основы творчества Олдоса Хаксли: миметический аспект. М., 2012
19. Sion R.T. Aldous Huxley and the Search for Meaning/R.Sion. – L.: McFarland & Company, 2010, – p.2.



**Açar sözlər:** Oldos Haksli, modernizm, intelektualizm, utopiya, antiutopiya
**Key Wods:** Oldos Haksley, modernizm, intellektualizm, utopia, dystopia


**Резюме**


В данной статье рассмотрены утопические и анти-утопические концепции Олдоса Хаксли, выражены его мысли об утопической мировой модели как отрожение его концептуального взгляда на мир.


**Summary**


This article examines Huxley's utopian and anti-utopian concepts, articulating yis thoughtson the utopian model of the world as a reflection of his conceptual worldview.